DÜNYA XƏBƏRLƏRİ

# Ukrayna Rusiyanın dörd tankerini vurduğunu bildirir

indicə




Ukrayna Qara və Azov dənizlərində Rusiya tankerlərini vurub

Ukrayna ordusu Rusiyanın Qara dəniz və Azov dənizindəki dörd tankerinə zərbələr endirib. Bu haqda iyulun 30-da Ukrayna Silahlı Qüvvələrinin Pilotsuz Sistemlər Qüvvələrinin komandanı Robert Brovdi məlumat verib.

Brovdi "Telegram"da yazıb ki, son üç həftə ərzində ümumilikdə 205 tanker hədəfə alınıb. Onlardan 130-u Azov dənizində, 75-i isə Qara dənizdə vurulub.

Xəzər Boru Kəməri Konsorsiumu (CPC) iyulun 30-da səhər saatlarında bildirib ki, gecə saatlarında Marşall adaları bayrağı altında üzən "Nissos Sifnos" tankerinə hücum edilib. Gəmi "Tengizchevroil" şirkətinin neftini yükləyərkən konsorsiumun VPU-3 üzən yükləmə qurğusunda olub. Bu qurğu Qara dənizdə, Novorossiysk yaxınlığında yerləşir.

Konsorsiumun məlumatına görə, hücum nəticəsində tankerin yük göyərtəsində yanğın baş verib. Yanğın söndürülüb, tanker üzmə qabiliyyətini qoruyub saxlayıb, neft sızması baş verməyib və xəsarət alan olmayıb.

"Marathi" adlı tanker isə dəniz terminalından azı 11 kilometr məsafədə, neft yükləmək üçün terminala yaxınlaşarkən hücuma məruz qalıb. CPC bildirib ki, hücumlardan sonra neftin yüklənməsi müvəqqəti dayandırılıb.

> ⚠️ Ship with 12 Azerbaijani crew attacked by three dronesThe bulk carrier ATA-2, carrying 12 Azerbaijani citizens and one Turkish citizen, was attacked by three drones near the port of Odessa.The ship sustained serious damage and is heading for the coast of Romania. According… pic.twitter.com/RKVfXMnNrl
>
> — Global Brief (@globalbrief_now) July 30, 2026

## 12 azərbaycanlının olduğu gəmi vurulub

Azərbaycanın news.az portalı X hesabında yazır ki, göyərtəsində 12 Azərbaycan vətəndaşı və bir Türkiyə vətəndaşı olan ATA-2 yük gəmisi Odessa limanı yaxınlığında üç dronun hücumuna məruz qalıb. Gəmi ciddi ziyan alıb və hazırda Rumıniya sahillərinə doğru hərəkət edir. İlkin məlumata görə, ekipaj üzvlərindən xəsarət alan olmayıb.

AzadlıqRadiosu bu xəbəri təsdiqlədə bilməyib.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur